**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 011/331

**Bakı şəhəri** “05” fevral **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-2024-cü illər üzrə rəsmi məlumatlarına əsasən, İordaniya Haşimi Krallığının Mafraq (Mafraq) inzibati ərazi vahidində dabaq, Rusiya Federasiyasının Başqırdıstan (Bashkortostan) Respublikasında, İsveç Krallığının Blekinqe (Blekinge) əyalətində Nyukasl, Almaniya Federativ Respublikasının Saksoniya (Sachsen) vilayətində, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Men (Isle of Man) adasında, Bolqarıstan Respublikasının Sofiya (Sofia) vilayətində, Amerika Birləşmiş Ştatlarının Ayova (Iowa) və Alabama (Alabama) ştatlarında qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi” nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Dabaq xəstəliyi üzrə:**

**1.1.1.** 2021-ci il 29 dekabr tarixli 079/174 nömrəli qərarla İordaniya Haşimi Krallığının Mafraq inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Nyukasl xəstəliyi üzrə:**

**1.2.1.** 2022-ci il 13 dekabr tarixli 072/247 nömrəli qərarla Rusiya Federasiyasının Başqırdıstan Respublikasına tətbiq edilmiş məhdudiyyət;

**1.2.2.** 2023-cü il 6 fevral tarixli 005/256 nömrəli qərarla İsveç Krallığının Blekinqe əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**1.3. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.3.1.** 2022-ci il 21 dekabr tarixli 073/248 nömrəli qərarla Almaniya Federativ Respublikasının Saksoniya vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.2.** 2022-ci il 30 dekabr tarixli 076/251 nömrəli qərarla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Men adasına tətbiq edilmiş məhdudiyyət;

**1.3.3.** 2023-cü il 21 fevral tarixli 008/259 nömrəli qərarla Bolqarıstan Respublikasının Sofiya vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.4.** 2023-cü il 30 oktyabr tarixli 049/300 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Ayova ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.3.5.** 2023-cü il 6 noyabr tarixli 050/301 nömrəli qərarla Amerika Birləşmiş Ştatlarının Alabama ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer